AZƏRBAYCAN XƏBƏRLƏRİ

# Bakı metrosunda qatarların hərəkətində problem yaranıb

indicə




Metrodakı problemlər bitmir: 'Normal işləyən bir o qalmışdı, onu da...'

Bu gün, sentyabrın 14-ü səhər saatlarında Bakı metrosunun bütün istiqamətlərində qatarların hərəkətində problem yaranıb.

Bir çox şahidlərin sözlərinə görə, qatarların hərəkəti 15, digərlərinə görə isə daha çox dayanıb. Bir şahidin vurğulamasına görə, "İçərişəhər" və "Sahil" stansiyalarının arasında sərnişinlər 30 dəqiqədən çox tuneldə qalıb. **"Bəzi sərnişinlərin səhhəti pisləşib, təşviş yaranıb"**, - adının çəkilməsini istəməyən paytaxt sakini deyib.

Şahidlər həmçinin "Qara Qarayev" stansiyasına girişin dayandırıldığını bildiriblər. Bəzi stansiyalarda isə sərnişinlərin qatarlardan düşürüldüyü qeyd olunur.

Yerli saytların məlumatına görə, "Bakı Metropoliteni" QSC-dən bildirilib ki, "İçərişəhər" stansiyasının giriş sahəsində qatarda nasazlıq yaranıb. Bu səbəbdən köməkçi qatar verilməklə nasaz qatar xətdən çıxarılır. Qısa müddət ərzində "Qırmızı xətt" üzrə interval bərpa olunacaq: **""Yaşıl" və "Bənövşəyi" xətlərdə qatarlar qrafikə uyğun olaraq hərəkət edir, hər hansı təhlükəli və ya ciddi narahatlıq doğuran məsələ yoxdur".**



Bakı metrosunda bundan əvvəl də belə hallar yaşanıb. Elə sonuncu dəfə bu il aprelin 21-də Bakı metropoliteninin bütün stansiyalarında sərnişinlərin girişinə müvəqqəti məhdudiyyət tətbiq edilmişdi. Onda açıqlandı ki, "Ulduz–Nərimanov" mənzilində təmas relsinə yüksək gərginliyin verilməsində texniki nasazlıq yaranıb. Təhlükəsizlik məqsədilə "Ulduz" və "Nərimanov" stansiyalarında sərnişinlərin təxliyəsi həyata keçirildi. Metronun fəaliyyəti yalnız saatlar sonra tam bərpa edildi.

Onda bəzi ekspertlər deyirdilər ki, metropolitenin texniki təminatında şəffaflıq yetərincə deyil. Vaqonların alışında, təmir, yenidənqurma işlərində bütün bilgilər ictimaiyyətə çatdırılmır. Mütəxəssislər vurğulayırdılar ki, bu cür texniki qəzaların kökündə korrupsiya kimi ciddi amillərin dayanıb-dayanmadığı araşdırılmalıdır.

---

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur